# Ağlın toxluğundan qəlbin aclığına...

## Lev Tolstoyun “Anna Karenina” romanı barədə



Fərid Hüseyn

*Əvvəli ötən sayımızda*

### MÖVQE

Aleksey Aleksandroviç çıxılmazlıqdadır, - həyat ona getməyə yol, üz tutmağa səmt qoymayıb. İlk baxışdan elə görünür ki, o, Annanı bağışlayıb, başqasından hamilə qaldığını qəbul edib, həyat yoldaşının onunla nikahda ola-ola sevgilisi ilə uzaq ölkəyə getməsini hardasa anlayışla qarşılayıb, amma əslində, tam mənada belə deyil. Xeyirxahlığının, rəhmdilliyinin əvəzində onun mükafatı nədir, həyat bu qədər mərhəmətin müqabilində ona nə bəxş edib? Xeyirxahlıqlarının əvəzində Aleksey Aleksandroviç tənha qalıb, uşağına həm ata, həm ana olmaq öhdəliyi onun boynuna düşüb, eyni zamanda camaat arasında rüsvay olub, ətrafındakı neçə-neçə insanın nifrətini qazanıb. O, günahkarı - Annanı bağışlayıb, ancaq bundan sonra sanki bütün günahların yükü onun öz çiyinlərinə çöküb və o, buna tab gətirə bilmir. Ona nifrət edənlər, onu ələ salanlar, rişxəndlə yanaşanlar, məzəmmət edənlər çoxdur. İnsanlarla bu cür qarşılıqlı münasibətdə o təkdir və bu qeyri-bərabər döyüşdə onun məğlubiyyəti qaçılmazdır. Aleksey Aleksandroviç daim karyeristlik etdiyinə görə özünə səmimi dost qazana bilməyib və nəticədə onun ən çətin günündə yanında sirdaşı, dərd ortağı yoxdur, o isə daha insanlarla rütbəli bir məmur kimi yox, acınacaqlı durumdakı biri kimi danışmaq, dərdini bölüşmək, daxilən rahatlaşmaq istəyir. Əfsus ki, onunla danışmaq, ona həmdərd olmaq istəyən yoxdur. Onda Aleksey bir qədər toxtaqlıq tapmaq üçün başqa bir yaşam metodu, özünətəlqin üsulu seçir ki, heç olmasa nisbətən rahat ruhi rahatlıq tapa bilsin. O düşünür ki, Annanı bağışlamaqla İsa Məsihin iradəsini yerinə yetirib, din bağışlamağın tərəfindədir, belədirsə, deməli, o yüksəkdədir, onu qınayanlarsa mənəvi quyunun dibindədirlər. O, özünə ona görə bu yüksək mövqeyi seçir ki, həmin mövqedən başqalarına - ona məzəmmətlə yanaşanlara rahatlıqla nifrət edə bilsin, cəmiyyətin aqressiyasına daxili dünyasında - qəlbinin dərinliklərində belə olsa cavab verə bilsin. Əks təqdirdə özünə qarşı olan təhqiramiz münasibəti qəbul etmək onun üçün dözülməzdir.

Aleksey Aleksandroviçi həyat yoldaşı tərk edəndən sonra onun mənsəb pilləsində irəliləyişlərin də qarşısına kötük diyirlənir, vəzifəcə irəliləyə, karyera nərdivanında yüksələ bilmir. Daha iş həyatında onun təklifləri, təşəbbüsləri dəyərləndirilmir, göstərişləri gözardı edilir, zəhməti diqqətə alınmır. Ətrafındakı insanlar onun iş taleyinin hədd nöqtəsinə - sonuncu dayanacağına çatdığını dərk edir, fəqət bircə özü düşdüyü acınacaqlı vəziyyəti, real durumu tam dəqiqliyi ilə görmür. O, xoşbəxt olduğunu düşünür, özünü reallıqların əlindən alıb toxunulmaz bir nöqtədə qorumaq istəyir və başlayır cürbəcür fikirlər, özünütəlqinlər uydurmağa. Düşünür ki, o, Annanı elə bir ruhi mərtəbədə bağışlayıb ki, adi insanlar kamilliyin həmin ucalığına qalxa bilmirlər deyə onu anlamırlar, ona görə də ona nifrət edirlər. Aleksey Aleksandroviç ancaq insanlarla özünün arasında çəkdiyi sədd nöqtəsində xoşbəxt olur. Onun başqa bir təsəllisi də var: A.Aleksendroviç apostol Pavelin ”İncil”ə əsaslanan bir fikrini teztez xatırlayır: ”Evli adam dünyəvi şeylərin qayğısına qalıb arvadına necə yarınmaq istəyirsə, subay adam da Allaha bağlanıb ona yaxın olmaq haqqında düşünür”. O, bu fikirlə təskinlik tapır, düşünür ki, onun Annasız həyatı Allaha gedən yolun önünü açıb, indi Yaradana daha çox bağlıdır. Fikirləşir ki, daha o bütün qəlbiylə Yaradan naminə yaşayır, ancaq, əslində, belə deyil. Lev Tolstoy bir neçə qəhrəmanının Allaha inamını əlacsızlıqdan doğduğunu göstərir. Xəstə Nikolayı ölüm dalana dirəyib deyə o, Allahın adını tutur, Xudaya bağlanır. A.Alekandroviç isə kimsəsizlik, tənhalıq küncə qısnadığı üçün Allaha pənah aparır. Allaha çarəsizlikdən inanan hər iki qəhrəmanın aqibəti faciəli olur: Nikolay ölür, Alekseyin isə səadətini itirir, ailəsi dağılır, işləri axarından çıxır, daxili böhranı gün-gündən dərinləşir. Tolstoy göstərir ki, Allah çarəsizlik ünvanı deyil, əlac qapısıdır. Hamını tərk edib Allaha sığınmaq olmaz. Yaradana üz tutarkən qəlbimizdə hökmən sevdiyimiz insanlar olmalıdır, biz Tanrının hüzuruna könlümüzdəki insan sevgisi ilə getməliyik. Təcridlik, hamıdan bezar olmaq, hər kəsdən gen gəzmək, özünü hamıdan tənhalıq vasitəsi ilə qorumaq xilas yolu deyil.

Aleksey Aleksandroviçin faciəsini, mənəvi böhranını nədən duyuruq, necə bilirik ki, onun Allaha olan sevgisi səmimi deyil, onun Yaradana ruhi bağlılığı tam mənada ürəkdən gəlmir? O, həyat yoldaşı Annanı bağışlayıb, ən azı, özü və Anna belə düşünür. Hətta o, arvadını əfv etməsin görə daxili məmnunluq duyur. Lakin belə deyil, o, Annanı bağışlamayıb, onu ruhunun dərinliklərində əfv etməyib. Əgər belədirsə, onda Anna da, Vronski də, Aleksey Aleksandroviçin özü də, hətta həmin hissəni (Aleksey Aleksandroviçin xəstə döşəyində olan Annanı və Vronskini bağışladığı səhnəni xatırlayaq) oxumuş biz oxucular da allanıb, olanları real vəziyyətə uyğun dəyərləndirib yanılmışıq. Çünki Tolstoy bir detalla Alekseyin arvadını bağışlaya bilmədiyini göstərir: ”Aleksey Aleksandroviç arvadının yanında bu qədər müqəddəs ikən arvadını xatırlamaq onu sıxmamalı idi; lakin o, sakit deyildi; oxuduğu kitabı anlaya bilmir, arvadına qarşı münasibəti haqqında, indi ona göründüyü kimi arvadına münasibətində buraxdığı səhvlər haqqındakı əzabverici xatirələri başından qova bilmirdi. Cıdırdan qayıdıb gəldikdə öz xəyanəti haqqında arvadının etirafına necə münasibət göstərdiyini xatırlamaq (xüsusilə, rəqibini duelə çağırmayıb arvadından zahiri nəzakət tələb etməsi) ona peşmanlıq əzabı verirdi. Həmçinin arvadına yazdığı məktub da ona dinclik vermirdi; Xüsusi ilə, Annanın günahından keçməsi, özgənin uşağına göstərdiyi qayğı onun qəlbini xəcalət və peşmanlıq oduyla yandırırdı”.



Bizə aydın olur ki, insan özünü, qəlbini bütünlüklə tanımaq qüdrətində deyil, hətta daha dərinə getsək anlayarıq ki, bəşər övladı ən pis özünü tanıyır. Sanki inanın varlığı onun özü üçün uydurulmuş düyünlü bir müəmmadır. Allahı dərk etməyənə qədər o ”islanmış düyün” açılmır. Biz əməllərimizə qiymət verərkən doğru və səhv addım atdığımızı düşünürük, qiymətləndirmək bacarığımız ancaq bu iki nəticəni seçməkdən ibarətdir. Aleksey Aleksandroviç həyat yoldaşı Annanı bağışladığını düşünür, ancaq sonradan qəlbində baş qaldıran hisslər, beynindən qova bilmədiyi fikirlər bizə aydın göstərir ki, yox, o, Annanı tam mənada əfv etməyib, sadəcə ona elə gəlir ki, o bu günahkar qadını əfv edib. İnsan ancaq qəlbinin dərinliyindəki hissləri öyrənəndən sonra onun nə etdiyi həm özünə, həm də qarşı tərəfə tam aydın olur. Ancaq heç kəsin vaxtı yoxdur ki, bir-birinin qəlbindəki ”düşüncələri”n nə zamansa tam aydınlaşacağını oturub gözləsin. Nəticədə insanlar ani qərarları ilə bir-birini çox zaman istəmədən aldadırlar. Qəlbin qərarları isə bir çox hallarda peşmanlıqdan sonra yəqinliyinə qovuşur.

Sonra yenə Aleksey barədə müəllif nədənsə əvvəlki fikirlərinə qayıdır, sanki qəsdən oxucunu çaş-baş salır: ”Bu aldanış uzun sürmədi, Aleksey Aleksandroviçin qəlbində yenə də sakitlik və ucalıq bərqərar olundu ki, bunun da sayəsində xatırlamaq istəmədiyi şeyi unuda bilirdi”.

Yuxarıda dediyimiz kimi, Aleksey Aleksandroviçin bağışladığına görə peşman olması, sonra o fikirləri başından atması, bir sözlə, tərəddüdləri, daxili götür-qoyları açıq-aşkar göstərir ki, o, qəlbinin dərinliyində həyat yoldaşını tam mənada bağışlaya bilməyib. Günahkarı bağışlayan başqa biri nə vaxtsa onu görəndə, yaxud xatırlayanda onun günahı ilə bərabər xatırlayır, mütləq olub-keçənləri bir anlıq da olsa yada salır. Görünür, insanın insanı tamamilə bağışlaması çox zaman mümkünsüzdür. Ona görə də günahkar insanlar qəlbinin dərinliklərində bu həqiqəti, aççılmazlığı duyduqlarına görə onları bağışlamış, əslində isə, qəlblərində onlara qarşı az da olsa qırıqlıq qalmış insanların varlığının təzyiqini hər zaman duyurlar və buna görə narahat olurlar. Günahkar insanın, hətta bağışlansa belə özünü tam mənada əfv edə bilməməyinin də kökündə həm də bu amil dayanır.

### MÜQAYİSƏ

Anna Peterburqa gələndən sonra oğlunun fikri, - övladını görmək arzusu bir dəqiqə də olsun onun qəlbini rahat buraxmır. İtaliyada oğlunu ara-sıra düşünən Anna, yenicə gəldiyi Peterburqda - daha yaxın məsafədə övladını görmək üçün təşnədir. Ancaq ərinə məktub yazıb oğlunu görməyi xahiş etmək onun gözünə durub, bu, onun üçün çox məşəqqətli bir işdir. Anna öyrənir ki, əri qrafinya Lidiya İvanovayla yaxın münasibətdədir və ona görə də həmin qadına məktub yazıb oğlunu görmək istədiyini bildirir. O anlayır ki, əri bu görüşə icazə verəcək, - yenə alicənablıq rolunu mahir ifa edəcək, Anna isə növbəti dəfə onun mərhəmətinin qarşısında alçalmaq istəmir. Bu qürurlu bir qadın xislətidir - bağışlayanı yox, əldə etmək imkanı yaradanı sevmək.

Anna oğlu ilə bağlı məsələni - onu görmək arzusunu hər iki kişidən - həm Aleksey Aleksandroviçdən, həm də Vronskidən gizlədir. Çünki Aleksey mərhəməti ilə, Vronski isə Annanın övlad sevgisinə biganəliyi ilə onun ruhunu parçalaya, ona daha çox əzab verə bilərlər. O yaxşı başa düşür ki, əgər oğlunu görmək istədiyini Vronskiyə desə, o, bunu çox adi bir hal kimi qarşılayacaq və ciddi əhəmiyyət verməyəcək. Beləcə bu laqeydliyə görə Anna ona istər-istəməz nifrət edəcək. Anna Vronskini sevdiyinə görə onu gözündən salmaq istəmir, bunun üçün şərait yaranmasının qarşısını alır. Tolstoy bu detalı qabardaraq yazır: ”Anna da dünyada ən çox bundan (Vronskiyə nifrət etməkdən - F.H.) qorxurdu. Bu nöqtədə Annanın faciəsinin əsas göstəricilərindən biri aydınlaşır: Deməli, Annanı ana kimi heç bir kişi - nə keçmiş əri, nə də Vronski anlamır. O isə məhəbbəti qəlbindən ata bilmədiyi kimi, ana olmağın əzabını da könlündən çıxarmağa qadir deyil. O, məhəbbətindən dönmədiyi kimi, analıq hisslərindən də üz döndərə bilməz. Az qala, məhəbbətin Annanın gözündə ucaltdığı insanı (Vronskini) analıq hissi onun gözündən sala. Bu isə amansız bir həyat qanunauyğunluğudur: birini tapanda, birini itirmək, bir şey olanda, digər şeyin qəhətə çəkilməsi... Anna, əslində, bu amansız qanunauyğunluğu pozmaq istəyir: o, həm məhəbbətini, həm də ana sevgisini qəlbində qoruyur.

Lidiya ona cavab məktub yazır: ”Lütfkar xanım. Sizi xatırlamaq oğlunuzun bir sıra suallarına səbəb ola bilər ki, onu müqəddəs hesab etməli olduğu şey haqqında könlünü incitmədən bu suallara cavab vermək olmaz, buna görə də ərinizin rədd cavabını xristian məhəbbəti ruhunda anlamağınızı xahiş edirəm. Uca Allahdan sizə mərhəmət diləyirəm”.

Anna bu cavabdan sonra qrafinya Lidiya haqqında düşünür: O da ərini atıb, başqa bir kişi ilə - Aleksey Aleeksandroviçlə yaxınlıq edir, üstəlik ananı övladından ayırmağa çalışır. Sanki Anna bu qadını sövq-təbii özü ilə müqayisə edir: ”Qrafinya məndən də pisdir. Mən heç olmasa yalan danışmıram”. Anna görür ki, insanlardan düzlük uman, ədalət uman Aleksey, gör kim ilə birgə yaşayır, cəmiyyət isə bu baş verənlərə adi nəzərlərlə, normal hal kimi baxır. Üstəlik iki yetkin insan onun uşağını yalanla bəsləyirlər - Seryojanı anasının ölümünə inandırırlar. Anna bu qədər riyakarlığa tab gətirə bilmir və bir zamanlar yaşadığı evə gedib oğlunu görür. Tolstoy çox ağılı bir səhnəni canlandırır: ”Anna oğluna acgözlüklə baxırdı...”. Və bu təsirli səhnə davam edir:

- ”Sən mənim haqqımda nə düşünürdün? Yoxsa fikirləşirdin ölmüşəm?
- Mən heç vaxt bu yalana inanırdım.
- İnanmırdınmı, əzizim?
- Mən bilirdim, bilirdim, - deyə Seryoja özünün sevimli cümləsini təkrarladı və onun saçlarını tumarlayan Anasının əlini ovcunun içərisinə aldı, dodaqlarına alıb öpməyə başladı”.

Kişiyə bəslədiyi sevgiyə görə cəmiyyət, mühit Annanı təkləyir, səadətini ona rəva görmürlər, övlada məhəbbəti isə ən yaxın - əhatəsində olduğu insanlar ona çox görmək istəyirlər. Bu məqamda Annanın faciəsinin konturları aydınlaşır: Hər bədbəxt insan öz bədbəxtliyini ya hansısa üstünlüyünə, ya da çatışmazlığına ”borcludur”. Annanın faciəsi onun məhəbbətindədir, - kimisə qəlbən sevmək, istənilən halda ona bədbəxtlik gətirir. Beləliklə, bu cür çıxılmazlıqlardan, çarəsizlikdən sonra Annanı faciəyə gedən yolunun önü daha da açılır...

*Ardı var*

